# Özbəkistana səfər tarixdə dərin iz qoyacaq

***Dostluq və əməkdaşlıq dövlətlərin müstəqilliyinə hörmət və ehtiram, bəşəriyyətin gələcəyi üçün iqtisadi-siyasi münasibətlərin normallaşdırılması dövrün, zamanın tələbidir. Bu gün dünyada baş verən ziddiyyətlər, dövlətlərarası münaqişələr, müharibələr, münasibətlərin pozulması dünyanı ciddi çətinliklərlə üzləşdirmişdir. Bu problemlər sülhsevər insanları narahat etməyə bilməz.***

Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi bütün illərdə dünya dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına, əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm vermişdir.

Azərbaycan – Özbəkistan dövlətlərini və xalqlarını bir-birinə bağlayan tarixi köklər, milli-mənəvi dəyərlər, dostluq və qardaşlıq əlaqələri möhkəmdir, əsrlərin sınaqlarından çıxıb və bu günümüzə kimi yaşayır, uğurla davam etdirilir. Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi illərində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatdırılmış, ümummilli liderimizin Özbəkistan rəhbərləri Şərəf Rəşidovla, İslam Kərimovla dostluq münasibətləri xalqlarımızın, ölkələrimizin yaxınlaşmasına, insanların xoşbəxt həyatına xidmət etmişdir.

Bu gün bu ənənələr davam edir və münasibətlər ildən-ilə yaxşılaşır. Azərbaycan Prezidentinin Özbəkistana səfəri, Daşkəndin mərkəzində ulu öndərimizin adını daşıyan küçədə Heydər Əliyev Meydanının salınması, Meydanın mərkəzi hissəsində ümummilli liderimizin böyük memorial kompleksinin ucaldılması qardaşlıq və dostluğun əyani ifadəsidir.

Meydanın açılışında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərə göstərilən hörmət və ehtiramı yüksək qiymətləndirərək demişdir: “Əziz qardaşım Şavkat Miromonoviçin bu təşəbbüsünə, Daşkəndin mərkəzində atam Heydər Əliyevin xatirəsinə həsr edilmiş belə gözəl guşə yaradılmasına görə ona çox təşəkkür edirəm. Küçə, meydan, barelyef, gözəl park – bunlar Azərbaycan xalqının böyük liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, çox təşəkkür edirik və bunu özbək qardaşlarımızın bizim ulu öndərə, ortaq tariximizə həqiqətən qardaşcasına münasibət hesab edirik”.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Özbəkistan səfəri, geniş tərkibdə təşkil olunan görüşlər, vacib sahələrə aid sənədlərin imzalanması, prezidentlərin mətbuata bəyanatlarla çıxış



etmələri, Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevin Azərbaycan xalqı, ulu öndərimiz və Prezidentimiz haqqında söylədiyi xoş sözlər, qürurverici ifadələr dövlətlər arası münasibətlərin yüksək səviyyədə olduğunu göstərməklə bu dostluq və qardaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə bir zəmanətdir. Əlbəttə bu, hər iki dövlətin inkişafı, təhlükəsizliyi və xalqların xoşbəxt gələcəyi üçün əhəmiyyətlidir.

İlham Əliyevin Özbəkistana tarixi dövlət səfəri tərəfdaşlığın yeni yüksəliş mərhələsi kimi qiymətləndirmək olar. İmzalanan mühüm sənədlər çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək, mühüm layihələri həyata keçirmək üçün möhkəm təməl yaradır.

Prezidentimizin Özbəkistana budəfəki səfərinədək iki ölkə arasında imzalanmış 135 sənəd əlaqələrimizin geniş olduğunun nümunəsidir. Bu səfər zamanı isə mühüm sahələri əhatə edən 20-yə yaxın sənədin imzalanması əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu sübut edir və bu hər iki dövlətin milli maraqlarına uyğundur.

Prezidentimizin düşünülmüş siyasəti də məhz bu məqsədə – xalqların və dövlətlərin inkişafına, xoşbəxtliyinə, əmin-amanlığın yaradılmasına xidmət edir. Azərbaycan – Özbəkistan münasibətləri yeni bir mərhələyə qədəm qoyur.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***